# "Azərbaycan gözəl və sərvətli bir ölkədir"

*(Əvvəli ötən saylarımızda)*

## Midiyada siyasi quruluş

Midiyada qüvvətli və azad bir dövlət təsis edilməsindən əvvəl, Midiyada yaşayan tayfalar məişət etibarilə müstəqil bir yaşayışa malik idilər. Tədric ilə Midiya milləti xalqın müxtəlif təbəqələrinə müttəki olan bir millət şəklini almış və sonra milli və müstəqil bir hökumət təsis etməyə müvəffəq olmuşdur. Dağınıq qüvvətlər mərkəzi hökumətin əlində toplanmışdır. Pirniyanın yazdığına görə Midiya milləti o zamanda dört mühüm təbəqədən təşkil olunmuşdu: 1) mübarizlər (nizami); 2) əkinçilər; 3) kəsibə və əsnaf; 4) ruhanilər.

Bu siyasi və milli təbəqata müttəki olan rejimlər Midiya millətinin mədəni həyatda çox aşkar tərəqqisini göstərir və bildirir ki o zamanda midiyalılar ayrı millətlərə, xüsusilə parslara görə nə qədər yüksək bir mədəniyyətə malik imişlər. Çünki parslar o tarixdə qəbilə və əşirət şəklində yaşadıqlarından mədəni həyatda görkəmli bir tərəqqiyə nail olmamışdılar. Midiya padşahları məmləkətin daxili işlərinin islahına, qanunlar qoymaq və mücazatlar icra etməyə, xalqın ehtiyacatını aradan götürməyə, xüsusilə millətin bu yüksəkliyinə mütənasib bir münəzzəm və qüdrətli xalq qoşunu yaratmağa təvəccöh edib və bu yollarda mühüm müvəffəqiyyətlərə nail olmuşdular.

Bunu tarixçilərin hamısı, xüsusilə Şərqin qədim millətlərinin mədəniyyətləri haqqında böyük zəhmətlər çəkib və dərin təhqiqat aparan tarixçilər və o cümlədən Praşk, Oper və Vinkler təsdiq edirlər.

## Midiyalıların məzhəbi

Midiyalıların məzhəbi haqqında tarixçilərin apardıqları təhqiqat bu nəticəyə yetişmişdir ki, bizim babalarımızın əvvəlki məzhəbi atəşpərəstlik idi və bu məzhəbi təsis edənlər də midiyalılar olmuşdur. Sonra Midiyanın böyük mütəfəkkiri Zoroastr (Zərdüşt) məzhəbdə dərin islahat əmələ gətirdi və onu çox möhkəm və həqiqət etibarilə ali payələr üstünə qaldırdı. Bu islah edilmiş və Zərdüşt tərəfindən təkmil olmuş məzhəb o günkü aləmdə sabiqəsiz olub, bizim iftixarlı babalarımızın mütərəqqi əfkar (fikirlər) və parlaq mədəniyyətlərindən bariz bir nümunə olaraq göstərilir.

Zərdüşt şərqin böyük mütəfəkkirlərindən biri və eyni halda Midiya millətinin unudulmaz iftixaratından sayılır. Bu böyük mütəfəkkir bəşəriyyət camiesinin dərin islahatçılarından olmuşdur. Onun əhəmiyyəti bu günə qədər haqqında yazılan mütəəddid kitablardan anlaşılır. Bu məzhəbin həman tarixdə və ondan sonra geniş rəvac tapması parslar tərəfindən rəsmən qəbul edilib və Daryuşun hökuməti dövründə dövləti bir məzhəb kimi tanınması onun nüfuz və əhəmiyyətini aydın göstərir. Zərdüştün məzhəbi qədim dünyanı min ildən mütəcaviz bir dövrdə idarə edib öz nüfuzu altında saxlamışdır. Və indi də o məzhəbin mötəqidləriaz deyildir. Zərdüştün həmişəlik şah əsəri olan “Avesta” bəşəriyyətin yüksək



*Firidun İBRAHİMİ*

fikir və qərihələrindən nəşət etmiş bir əsərdir ki eyni halda Midiya millətinin ümumi mədəniyyət sahəsində etdikləri tərəqqinin nə qədər əsaslı və möhkəm olduğunu göstərir.

## Midiyalıların rüsum, adət və libasları

Midiyalılar rüsum, adət, milli yaşayış xüsusiyyətləri və həm də imarət təzyinat və libas qismində qonşu millətlərdən çox qabaq gedən bir millət kimi tanınmışdır. Parslar bu kimi mədəniyyət məzahirini midiyalılardan almışlar. Təbiidir ki mədəniyyətdən böyük miqdarda bəhrəli və o sahədə həmsayələrini geridə buraxmış Midiya milləti yalnız fateh olan zamanlarda deyil, bəlkə məğlub olduğu dövrlərdə də öz yüksək mədəniyyəti və ümumi kültürünü qonşu millətlərə və hətta qaliblərə və fatehlərə təhmil etmişdir. Demək olar ki, nizami cəhətlərdən məğlubiyyətinə rəğmən mədəni cəhətlərdən öz düşmənlərinə qalib gəlmiş, onları öz nüfuzu və mədəni istilası altına almışdır. Buna binaən bəhs etdiyimiz dövrdə Midiyanın adət, rüsum və ümumi mədəniyyəti onun mədəni cəhətdən nüfuzu altında olan tayfalar və millətlər arasında böyük təvəssö tapmış, hətta Yaxın Şərq məmləkətlərində Midiyanın mədəni nüfuzu olduqca artıq olmuşdur.

Şayan təvəccöhdür ki, uzun müddətlər midiyalıların hakimiyyəti altında qalan və sonralar onların mədəni istilasına məğlub olan parslar Midiya mədəniyyətini özlərininki kimi qələmə verməyə çalışmışlar. Bu pis iş, yəni özgəyə mərbut olan yaxşı zadları özününki kimi tanıtdırmaq səciyyəsi İran tarixi dövrlərinin hamısında görünür və onun əsərləri və yadigarları tam şiddətlə bizim zamanımıza da çatmışdır.

Müqəddəmədə zikr etdiymiz kimi özünə tarixçi adı qoyub qalın kitablar yazan əşxasdan bəziləri tarixi həqiqətləri təhrif etməkdən və ümumi əfkarı aldatmaqdan ötəri mövcud qüvvətli sənədlər və mədrəkləri, qədim zamanlara mərbut olan mədəni və ictimai yadigarları nəzərə almayaraq utanmazcasına Azərbaycan millətini tarixsiz və dilsiz tanıtdırmaqdadırlar. Onlar bu qədim millətin dünya tarixində yadigar qoyduğu iftixaratı özlərininki kimi qələmə verirlər.

Bugünkü elmin və dünya heyəti-ictimaiyyəsinə mərbut olan ümumi kültürün tərəqqisi bu əfsanələrin və parsların ixtira etdikləri mövhumatın (şovinizm) üzündən pərdəni götürüb tarixin üryan qiyafəsini göstərir. Midiya millətinin ziddinə olan ouhami şübhəli təbliğatdan bir nəticə ələ gəlmədiyi kimi dərin elmi təhqiqat isbat edir ki, Azərbaycan milləti müstəqil bir dilə və tarixə malik olub, tarix boyunda müəssir və parlaq bir kültür və fövqəladə parlaq bir mədəniyyətə sahibdir. Bu əsaslı və möhkəm amillər nəticəsidir ki, azərbaycanlıların qəhrəman babaları uzun müddət pars istilası altında zəhmətlərlə yaşadıqdan sonra bir daha öz milli azadlıq və istiqlallarını ələ keçirməyə müvəffəq olmuşlar.

Yuxarıda zikr etdiyimiz kimi parslar İskəndər və onun sərkərdələrinin, selevkilərin, əşkanilərin istilası altında yaşadıqları zamanlarda qəhrəman midiyalılar böyük və tədbirli mübarizələr nəticəsində öz müstəqil və milli hökumətlərini, yenə azad yaşayış binasını qurub və möhkəmlətməkdə idilər. Onlar bir daha azadlıq bayrağını qaldıraraq o günkü qədim dünyada böyük müvəffəqiyyətlərə nail olmuşdular.

Bu gün Midiya millətinin rəşid balaları öz tarixi əzəmətinin ehyası üçün qiyam etmişdir və təsmim almışdır ki, öz azadlıq bayrağını hürriyyət mudafei olan və şanlı Midiya millətini qoruyan qalaların üstündə vurub özünü qəhrəman babalarının həqiqi varisi olduğunu bütün dünyaya tanıtdırsın.